Redaksiyamızın qonağı

# "MƏDƏNİYYƏT.AZ" JURNALININ HƏR SAYI BÖYÜK SEVGİ İLƏ QARŞILANIR




Hər bir qəzet, jurnal, sayt təbliğatçılıq fəaliyyəti, hazırladığı xəbər, şərh, təhlil, maarifçi, sosial və sair məzmunlu materiallarla yanaşı, birbaşa xalqa istiqamətləndiyinə, çoxsaylı kütlələr üçün nəzərdə tutulduğuna görə kütləvi informasiya vasitəsi (KİV) sayılır. Daha dəqiq, özünü KİV sayan hər bir yaradıcı qurum ən əvvəl adına uyğun şəkildə geniş oxucu auditoriyasına malik olmalıdır. Onun istehsal etdiyi hər növ məhsul istehlakçını dolğun, operativ, tərəfsiz, obyektiv məlumatlandırmalı, insan faktoruna müsbət təsir göstərməli, şüurda didaktik, humanist iz qoyaraq ictimai tərbiyələndirməyə, kamil, vətənpərvər şəxsiyyətin formalaşmasına yönəlməlidir.

Yarandığı gündən məhz belə bir yaradıcılıq, fəaliyyət kursu seçən "Mədəniyyət.AZ" jurnalı da hər sayı dəyərli oxucuların ünvanına yetişəndə, necə deyərlər, zəhmətinin bəhrəsini görür – yerlərdən təşəkkür məktubları gəlir, insanlar redaksiyamıza təşrif buyurub, telefon açıb oxuduqları məqalələr barədə fikirlərini bölüşür, təkliflərini səsləndirirlər...

Jurnalımızın bu sayı çapa hazırlanarkən yenə də qapımız döyüldü, çəkinə-çəkinə içəri girən sadə, təvazökar, ziyalı, zəhmətkeş görkəmli bir şəxs özünü təqdim elədi: Həsən Xasiyev. Məlum oldu ki, Həsən müəllim Qusardan gəlib, ixtisasca jurnalistdir, elə bizim dərgidə də yaşadığı bölgənin tarixinə, etnoqrafiyasına, etnik rəngarəngliyinə, azsaylı xalqların mədəni irsinə aid yazıları işıq üzü görüb. Rayon qəzetində, mədəniyyət qurumlarında müxtəlif vəzifələrdə çalışıb, hazırda Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisidir.

Biz onunla əyani görüşməsək də, imzasını tanıdıq: bir müddət öncə elektron poçtumuza 60 yaşlı tanınmış musiqi qrupu - 1958-ci ildə yaradılmış "Ləzginka" mahnı və rəqs ansamblı haqqında yazdığı "Ləzginka – dostluq rəqsi" adlı məqaləsi də daxil olmuşdu, oxunub çapa hazırlanırdı.

Lakin qusarlı ağsaqqalın gəlişinin məqsədi yalnız qələmə aldığı yazının taleyi ilə maraqlanmaq deyildi, o, daha çox zaman-zaman oxuduğu, bəhrələndiyi nəşrin kollektivi ilə görüşmək, yaradıcı heyətə təşəkkürünü yetirmək istəyində idi...

Əvvəlcə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin Qusar ictimaiyyəti tərəfindən də dəstəkləndiyini bildirən H.Xasiyev bölgədəki etnik qrupların xoşbəxt, mehriban, əmin-amanlıq, tərəqqi şəraitində yaşadıqlarını vurğuladı.

Sonra "Mədəniyyət.AZ"ın az qala hər sayından, hər məqaləsindən söhbət açıldı. Hiss olunurdu ki, jurnalı diqqətlə oxuyur, qeydlər edir, təklifləri var. Amma Azərbaycan Cümhuriyyətinin 100 yaşına həsr olunmuş xüsusi buraxılışımız üzərində dayandı. "Xalq qürur, şərəf dolu keçmişindən məlumatsız qalmamalıdır, ələlxüsus gənc nəsillər tarixi, ədəbiyyatı, mədəniyyəti barədə, xüsusən ötən əsrin 18-20-ci illərində 23 ay yaşamış Azərbaycan Cümhuriyyəti, onun qurucularının həyat-fəaliyyəti, mühacirət dövrü haqqında əsl həqiqətləri bilməlidir. Bu mənada, dərginizin hər kəsin stolüstü bilgi mənbəyinə çevriləcəyi şübhəsizdir", - söylədi.

Hörmətli oxucularımıza diqqət və vaxt tapıb bizi yad etdiklərinə görə minnətdarıq, qapımız vətəni, torpağı, dövlətçiliyi, milli-mədəni dəyərləri sevən hər kəs üçün açıqdır...

Həsən Xasiyevin adıçəkilən yazısını sizlərə təqdim edirik.

İlham Fətəliyev